

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

3 sentyabr 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 33 (3796)

# Güclü lider, güclü Azərbaycan



## Azərbaycanın dünyada geosiyasi və geoiqtisadi çəkisi gündən-günə artır

Prezident İlham Əliyevin Bişkekdə keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) növbəti sammiti çərçivəsində Qırğızıstana işgüzar səfəri Azərbaycanın son illərdə ardıcıl şəkildə genişləndirdiyi Mərkəzi Asiya siyasətinin mühüm hadisələrindən biri kimi qiymətləndirilə bilər. Səfər həm Azərbaycan-Qırğızıstan münasibətlərinin inkişaf dinamikasını, həm də ölkəmizin daha geniş Avrasiya məkanında artan siyasi və iqtisadi fəallığını bir daha nümayiş etdirdi.

Bütövlükdə, Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətləri son dövrdə nəzərəçarpacaq dərəcədə intensivləşib. Bu əlaqələr artıq yalnız tarixi, mədəni və siyasi yaxınlıqla məhdudlaşmır. Xəzər dənizi, Orta Dəhliz, enerji, logistika, ticarət və investisiya layihələri əməkdaşlığa yeni geoiqtisadi məzmun qazandırır. Bu prosesdə Azərbaycanın əlverişli coğrafi mövqeyi xüsusi əhəmiyyət daşıyır. Ölkəmiz Mərkəzi Asiya ilə Cənubi Qafqaz, Türkiyə və Avropa arasında mühüm bağlantı məkanlarından biri kimi çıxış edir. Xəzərin şərq sahilindən gələn nəqliyyat və iqtisadi xətlərin Azərbaycan üzərindən Qərbə uzanması ölkəmizin regional və beynəlxalq nəqliyyat sistemində rolunu daha da artırır.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun - Orta Dəhlizin əhəmiyyətinin artması bu baxımdan xüsusi qeyd olunmalıdır. Mərkəzi Asiya dövlətlərinin dünya bazarlarına daha çevik və şaxələndirilmiş şəkildə çıxış imkanları əldə etməsi Azərbaycanın tranzit və logistika potensialını ön plana çıxarır. Bununla da ölkəmiz yalnız tranzit məkanı kimi deyil, Şərqlə Qərb arasında formalaşan yeni iqtisadi əlaqələrin əsas qovşaqlarından biri kimi mövqeyini möhkəmləndirir.

Prezidentin Bişkek səfərinin Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində baş tutması Azərbaycanın regional siyasətinin çoxtərəfli xarakterini də ön plana çıxardı. Geniş Avrasiya coğrafiyasını əhatə edən ŞƏT mühüm siyasi və iqtisadi əməkdaşlıq platformalarından biridir. Azərbaycanın bu platformada fəal iştirakı Mərkəzi Asiya ölkələri ilə mövcud ikitərəfli münasibətlərin daha geniş çoxtərəfli müstəvidə inkişaf etdirilməsinə əlavə imkanlar yaradır. Bişkek səfəri Azərbaycanın müxtəlif istiqamətlər üzrə həyata keçirdiyi diplomatik fəaliyyətin vahid regional strategiya çərçivəsində uğurla uzlaşdırıldığını göstərdi. Burada Mərkəzi Asiya, Cənubi Qafqaz və daha geniş Avrasiya məkanını əhatə edən müxtəlif siyasi və iqtisadi istiqamətlər kəsişir. Formalaşan yeni geosiyasi və geoiqtisadi mənzərədə Azərbaycan yalnız regionda baş verən proseslərin iştirakçısı kimi çıxış etmir. Ölkəmiz müxtəlif coğrafiyaları və iqtisadi maraqları birləşdirən, yeni əməkdaşlıq imkanlarının yaranmasına töhfə verən mühüm regional aktor kimi mövqeyini daha da gücləndirir.

Məhz bu mənada İlham Əliyevin Bişkek səfəri Azərbaycan-Qırğızıstan münasibətlərinin inkişafında növbəti mühüm mərhələ olmaqla yanaşı, Azərbaycanın Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında siyasi, iqtisadi və nəqliyyat bağlantılarının əsas mərkəzlərindən birinə çevrildiyini nümayiş etdirən mühüm hadisə kimi dəyərləndirilə bilər.

# Sumqayıtda vətəndaş qəbulu və sıra baxışı keçirilib

### Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov avqustun 31-də və sentyabrın 1-də Sumqayıt şəhərində növbəti vətəndaş qəbulu keçirib. Nazir əvvəlcə Sumqayıt şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

*(Ardı 2-ci səhifədə)*

# Böyük yarış, böyük məsuliyyət

### “Formula 1” ərəfəsində ictimai təhlükəsizliyin təminində polis peşəkar xidməti ilə diqqət mərkəzindədir

Bakı sentyabrın son günlərində yenidən sürət və böyük idman həyəcanı ilə diqqətləri özünə çəkəcək. 24–26 sentyabr tarixlərində paytaxtımızın ev sahibliyi edəcəyi builki “Formula 1 Qatar Airways” Azərbaycan Qran-Prisi xüsusilə yaddaqalan olacaq. Çünki 2026-cı ildə Azərbaycan Qran-Prisi artıq 10 illik yubileyini qeyd edəcək.

*(Ardı 2-ci səhifədə)*

# Cənubi Qafqazda yeni sülh mərhələsi

### Prezident İlham Əliyevdən “ŞƏT plyus” görüşündə mühüm mesajlar

Sentyabrın 1-də Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) üzv dövlətlərlə yanaşı, dəvətli ölkələrin də iştirak etdiyi “ŞƏT plyus” formatında görüş keçirilib. Tədbirdə çıxış edən Prezident İlham Əliyev Cənubi Qafqazda mövcud olan hazırkı sülh prosesinə toxunub. İlham Əliyev, həmçinin Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etdiyini qeyd edərək BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası üçün müvafiq mexanizmlərin yaradılmasının vacibliyini bildirib.

# Dünya Köçəri Oyunlarının açılış mərasimi keçirilib

### Tədbirdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak ediblər

Avqustun 31-də Qırğızıstanın paytaxtı Bişkekdə 6-cı Dünya Köçəri Oyunlarının açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Sentyabrın 6-dək davam edəcək oyunlarda atçılıq, güləş, oxatma və digər ənənəvi idman növləri üzrə yarışlar keçiriləcək. Tədbir çərçivəsində, həmçinin köçəri xalqların zəngin mədəni irsi, qədim adət-ənənələri nümayiş etdiriləcək, dostluq və birlik dəyərləri təbliğ olunacaq.

# Sülh gündəliyi və regional sabitlik diqqət mərkəzində

### Bişkekdə mühüm diplomatik görüşlər keçirilib

Prezident İlham Əliyev Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində Ermənistanın Baş naziri Nikol Paşinyan, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, İran Prezidenti Məsud Pezeşkian, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Hindistanın Baş naziri Narendra Modi ilə görüşlər keçirib.

Ermənistanın Baş naziri ilə görüşdə sülh gündəliyinin dəstəklənməsi, dövlətlərarası münasibətlərin normallaşdırılması, iqtisadi-ticarət əlaqələrinin qurulması, sərhədlərin delimitasiyası və TRIPP layihəsi üzrə növbəti addımlar müzakirə edilib. Türkiyə, İran, Qazaxıstan və Hindistan liderləri ilə təmaslarda isə ikitərəfli münasibətlərin inkişafı, regional sülh və sabitlik, nəqliyyat-logistika əməkdaşlığı, Orta Dəhlizin imkanları və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

**Cinayətkarlığın yeni rəqəmsal ünvanı** 3




**Məsuliyyətdən yayına bilmədilər** 3



**Videoçəkilişlər zamanı edilən təhlükəli əməllər** 4



**İstintaqda psixoloji yanaşma** 4



# Respublika Xəbərləri

### Azərbaycan Rəqəmsal Əməkdaşlıq Təşkilatına üzv olub

Azərbaycan Rəqəmsal Əməkdaşlıq Təşkilatına (DCO) üzv qəbul edilib. Üzvlük ölkəyə qabaqcıl rəqəmsal siyasət və təcrübə mübadiləsinə çıxış, yerli startapların üzv ölkələrin bazarlarına və vençur fondlarına çıxış imkanları yaradacaq.

### Sənaye zonalarında istehsal artıb

Bu ilin ilk yarısında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonalarında 1,94 milyard manatlıq məhsul istehsal olunub. İstehsalın həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 9,4 faiz artıb, məhsulların 554,7 milyon manatlıq hissəsi ixrac edilib.

### Azərbaycan "yaşıl" enerji körpüsünə çevrilir

Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi istiqamətində əməkdaşlıq genişlənir. Üç ölkənin enerji sistemlərinin əlaqələndirilməsi və Mərkəzi Asiyada istehsal olunan bərpaolunan enerjinin Azərbaycandan keçməklə Avropaya çatdırılması məqsədilə "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsi həyata keçirilir.

### Minatəmizləmə işləri davam edir

Ötən ay azad edilmiş ərazilərdə 121 tank əleyhinə, 514 piyada əleyhinə mina və 2724 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Bu müddətdə 7568,9 hektar ərazi minalardan təmizlənib.

### Taksi duracaqlarının sayı artırılıb

Bakıda daha 10 ünvanda tibb və sosial xidmət müəssisələrinin qarşısında sərnişinlərin minib-düşməsi üçün xüsusi yerlər və taksilər üçün duracaqlar təşkil olunub. Bunun üçün bəzi parklanma yerləri ləğv edilərək "durmaq qadağandır" və "minik taksilərinin duracaq yeri" nişanları, həmçinin xüsusi hərəkət zolaqlarında məlumat lövhələri quraşdırılıb.

### Doğma yurda qayıdış davam edir

İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" çərçivəsində Cəbrayıl rayonunun Şükürbəyli kəndinə 15 ailənin, ümumilikdə 86 nəfərin, Ağdam şəhərinə isə 117 ailənin, ümumilikdə 362 nəfərin daimi yaşayışı təmin edilib. Həmçinin, Ağdamın Xıdırlı və Kəngərli kəndlərində səyyar tibbi xidmət keçirilib və xidmət zamanı 18-i uşaq olmaqla, 30-dan çox sakin müayinə olunub.

### Xarici ticarət dövriyyəsi artıb

Azərbaycanın xarici ticarət dövriyyəsi bu ilin yanvar-iyun aylarında 26 milyard 54,2 milyon dollar təşkil edib. İxracın dəyəri 17 milyard 713,1 milyon, idxalın dəyəri isə 8 milyard 341,1 milyon dollar olub və nəticədə 9 milyard 372,1 milyon dollar müsbət saldo yaranıb. Xarici ticarət dövriyyəsi ötən ilin eyni dövrü ilə müqayisədə cari qiymətlərlə 9,1 faiz artıb.

### Qarabağ Universitetində yeni akademik bölmələr yaradılacaq

Qarabağ Universitetində İstanbul Texniki Universitetinə (İTU) tabe olan akademik bölmələr yaradılacaq. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qərar imzalayıb. Qeyd edək ki, 2026/2027-ci tədris ilindən Qarabağ Universitetində İTU ilə birgə mühəndislik ixtisasları üzrə ikili diplom proqramına start verilib.

### Strateji investisiyalarla bağlı yenilik

Azərbaycanda bu ilin yanvar-iyul aylarında qeyri-neft-qaz sektoruna 7 milyard 403,3 milyon manat investisiya qoyulub. Strateji investisiya layihələrinin daha sürətli həyata keçirilməsi məqsədilə Komissiya yaradılıb. Yeni mexanizm layihələrin icra müddətini təxminən 30–40 faiz azaltmağa imkan verəcək.

### Balıq ovu mövsümü başlayıb

Kürüləmə dövrü ilə əlaqədar sənaye məqsədli balıq və digər su bioresurslarının ovuna qoyulmuş moratoriumun müddəti başa çatıb. Cari il 1 sentyabrın 1-dən müəyyən edilmiş qaydalara uyğun olaraq balıq ovu müddəti açıq elan edilib. Su hövzələrində balıq ovu qaydalarına nəzarət tədbirləri davam etdirilir.

### Rəqəmsal xidmətlər vergiyə cəlb olunur

Azərbaycanda rəqəmsal xidmət göstərən daha 3 beynəlxalq şirkət vergi uçotuna alınıb. Yeni qaydalara əsasən, Azərbaycanda elektron ticarət qaydasında xidmət göstərən və illik dövriyyəsi 10 min ABŞ dollarını aşan qeyri-rezident rəqəmsal xidmət təchizatçıları üçün elektron vergi qeydiyyatı məcburidir.

# Sumqayıtda vətəndaş qəbulu və sıra baxışı keçirilib

## Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub





*(Əvvəli 1-ci səhifədə)*

Daha sonra Şəhər Polis İdarəsinin inzibati binasında qəbula gələn 585 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib. Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 458 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



# Böyük yarış, böyük məsuliyyət

## "Formula 1" ərəfəsində ictimai təhlükəsizliyin təminində polis peşəkar xidməti ilə diqqət mərkəzindədir

*(Əvvəli 1-ci səhifədə)*

10 il ərzində Bakının tarixi küçələri, müasir memarlığı və Xəzər dənizinin mənzərəsi fonunda keçirilən bu möhtəbər yarış həm idman, həm də turizm baxımından Azərbaycanın beynəlxalq təqdimatında mühüm rol oynayıb. Milyonlarla insanın diqqətini ölkəmizə yönəldən belə bir beynəlxalq tədbirin görünən tərəfi hər nə qədər tras, bolidlər və podium olsa da, qran-priyə uğurla ev sahibliyi edilməsinin arxasında daha böyük və bəzən tamaşaçı üçün görünməyən vacib bir proses dayanır – təhlükəsizliyin təmin edilməsi... Sirr deyil ki, Formula 1 kimi genişmiqyaslı tədbirin keçirilməsi üçün təhlükəsizlik vacib şərtdir. Ona görə də bu əlamətdar günlər təhlükəsizliyin daimi təmin olunması qurumlar üçün məsuliyyət dövrü, indiyədək qazanılmış müsbət təcrübəni daha şövqlə davam etdirmək məqamıdır. Minlərlə yerli və xarici azarkeşin, idmançıların, komanda üzvlərinin və media nümayəndələrinin Bakıda rahat və təhlükəsiz hərəkətinin təmin olunması ilk növbədə daxili işlər orqanlarından, polisdən böyük peşəkarlıq tələb edir.



### ►Təhlükəsizlik yarışdan əvvəl başlayır

İctimai təhlükəsizliyin təmin olunması yarış günü polis əməkdaşlarının xidmətə çıxması ilə başlamır. Əksinə, bu proses uzunmüddətli hazırlıq, tədbirlərin keçiriləcəyi ərazilərin xüsusiyyətlərinin öyrənilməsi, mümkün risklərin qiymətləndirilməsi, xidmətin düzgün planlaşdırılması və müxtəlif ssenarilərin nəzərdən keçirilməsi ilə start götürür.

Yarış ərazisi və ona bitişik sahələrdə asayişin qorunması, insanların hərəkətinin təhlükəsiz təşkili, nəqliyyat axınının tənzimlənməsi, izdihamın idarə olunması və ehtimal edilən insidentlərə çevik reaksiya göstərilməsi kompleks təhlükəsizlik tədbirlərinin əsasını təşkil edir. Həm də belə tədbirlərdə məqsəd baş verən hadisəyə müdaxilə etməyə hazırlıqlı olmaq deyil, mümkün riskləri əvvəlcədən müəyyənləşdirərək onların qarşısını almaqdır. Yəni problem ortaya çıxandan sonra həll etməkdən daha yaxşısı onun yaranmasına imkan verməməkdir. Məhz bu yanaşma müasir polis fəaliyyətinin əsas xüsusiyyətlərindən birini – preventiv və proaktiv təhlükəsizlik modelini önə çıxarır.

### ►Bakı Şəhər Halqası: yarış və şəhər həyatının kəsişdiyi məkan

Bakıdakı Formula 1 trasının əsas fərqlərindən biri onun şəhərin tam mərkəzində yerləşməsidir. Burada idman infrastrukturu ilə şəhərin gündəlik həyatı bir-birinə çox yaxın məsafədədir. Bu isə təhlükəsizlik baxımından əlavə məsuliyyət yaradır. Bir tərəfdə yüksək sürətlə hərəkət edən bolidlər, digər tərəfdə isə şəhərin gündəlik həyatını davam etdirən sakinlər, turistlər və yarışı izləməyə gələn azarkeşlər var. Bu iki axının təhlükəsiz şəkildə idarə olunması dəqiq planlaşdırma tələb edir. Tədbir günlərində küçələrdə hərəkət edən hər bir insan - istər yerli sakin, istər xarici turist, istərsə də azarkeşlər ümumi təhlükəsizlik sisteminin iştirakçısına çevrilirlər.

Ölkəmiz son illərdə bir sıra nüfuzlu beynəlxalq idman yarışlarına və irimiqyaslı tədbirlərə uğurla ev sahibliyi edib. Formula 1 Azərbaycan Qran-Prisi ilə yanaşı, UEFA Avropa çempionatının Bakıdakı oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq tədbirlər ölkəmizin yüksək səviyyədə təşkilatçılıq qabiliyyətini nümayiş etdirib. Hər bir böyük tədbir daxili işlər orqanları üçün də yeni təcrübə, yeni yanaşma və yeni peşəkar bacarıqlar deməkdir.

Bu günədək ölkəmizdə keçirilən kütləvi tədbirlər zamanı insanların təhlükəsizliyinin təmin edilməsi, ictimai asayişin qorunması, nəqliyyatın idarə olunması, müxtəlif xidmətlər arasında koordinasiyanın qurulması və fövqəladə vəziyyətlərə çevik reaksiya verilməsi istiqamətində əldə olunan təcrübə növbəti tədbirlərin də daha səmərəli təşkilinə mühüm zəmin yaradır.

Beləliklə, illər ərzində formalaşan müsbət təcrübə artıq ayrı-ayrı tədbirlərin çərçivəsindən çıxaraq daxili işlər orqanlarının beynəlxalq tədbirlərin təhlükəsizliyinin təmin edilməsində öz nümunəsini yaradıb.

### ►Polisin peşəkarlığı görünür, təhlükəsizlik hiss olunur

Böyük tədbirin ən mühüm göstəricilərindən biri insanların özlərini nə dərəcədə təhlükəsiz hiss etməsidir. Xüsusilə xarici qonaqlar üçün bu mühümdür və öz vəzifəsini yerinə yetirən polis əməkdaşının davranışı bir o qədər önəmlidir. Azərbaycanı ilk dəfə ziyarət edən əcnəbi vətəndaşın ölkə haqqında təsəvvürü yalnız gördüyü tarixi abidələr, otellər və restoranlarla formalaşmır. O, küçədə qarşılaşdığı insanlardan, nəzakətli münasibətdən, çevik yardımdan və düzgün kommunikasiyadan da təsirlənir. Bu baxımdan polis əməkdaşı böyük beynəlxalq tədbirlər zamanı həm təhlükəsizliyin təminatçısı, həm də ölkəmizin qonaqpərvərliyini nümayiş etdirən dövlət nümayəndəsidir.

Formula 1-də saniyələr necə böyük əhəmiyyət daşıyırsa, təhlükəsizliyin təminində də dəqiq planlaşdırma və saniyə-saniyə koordinasiya mühüm rol oynayır. Böyük izdihamın idarə olunması, xidmət qüvvələrinin düzgün yerləşdirilməsi və mümkün risklərə çevik reaksiya vahid təhlükəsizlik mexanizminin tərkib hissələridir.

Belə tədbirlərdə polis əməkdaşlarından yüksək intizam, diqqət, çeviklik və soyuqqanlılıq tələb olunur. Hər bir əməkdaşın üzərinə düşən vəzifəni dəqiq yerinə yetirməsi ümumi təhlükəsizlik sisteminin etibarlılığı baxımından vacibdir.

Bakının artıq uzun illərdir Formula 1 kimi nüfuzlu yarışa ev sahibliyi etməsi şəhərin beynəlxalq tədbirlərin təşkili sahəsində qazandığı təcrübənin göstəricisidir. Bu 10 il ərzində təşkilatçılıq imkanları ilə bərabər, təhlükəsizlik sahəsində də böyük potensial formalaşıb. Hansı ərazilərdə daha çox sıxlıq yaranır? Hansı saatlarda nəqliyyat yükü artır? İnsanlar hansı istiqamətlərdə daha intensiv hərəkət edir? Hansı təhlükəsizlik tədbirləri daha effektiv nəticə verir? Bu suallar illər ərzində toplanan praktiki təcrübə sayəsində cavablanır. Yəni hər yeni yarış əvvəlki illərin təcrübəsinin təhlili, yeni risklərin qiymətləndirilməsi və xidmətin daha da təkmilləşdirilməsi üçün imkan yaradır. Xüsusilə də bu təcrübə gələcəkdə Azərbaycanda keçiriləcək digər beynəlxalq yarış və tədbirlərin təhlükəsizliyinin təmin olunması baxımından da mühüm resursdur.

Əlbəttə, ictimai təhlükəsizliyin təmin edilməsinə vətəndaşlar da yardım etməlidir. Tədbir iştirakçılarının və azarkeşlərin müəyyən edilmiş qaydalara əməl etməsi, polis əməkdaşlarının qanuni tələblərinə uyğun davranması, təhlükəsizlik tədbirlərinə məsuliyyətlə yanaşması ümumi təhlükəsizliyə töhfə verir.

Polis isə bu prosesdə əsas dayaqlardan biri kimi insanların rahat və təhlükəsiz şəkildə yarış həyəcanını yaşamasına şərait yaradır. Azərbaycan Polisinin illər ərzində formalşdığı təcrübəsinə əsasən qeyd edə bilərik ki, belə böyük yarışın uğuru yalnız finiş xəttini birinci keçməklə ölçülmür. Əsl uğur minlərlə insanın həmin yarışdan təhlükəsiz, rahat və xoş təəssüratlarla ayrılmasıdır.

# Cinayətkarlığın yeni rəqəmsal ünvanı

## Şifrəli mesajlaşma tətbiqləri cinayətkarların yeni alətinə çevrilir







Müasir texnologiyalar həyatımızın bütün sahələrinə nüfuz edib. Xüsusilə ani mesajlaşma tətbiqləri insanların bir-biri ilə sürətli və rahat əlaqə saxlamasına, məlumat mübadiləsi aparmasına, şəxsi yazışmalarının məxfiliyini qorumasına geniş imkanlar yaradır. Lakin texnologiyanın təqdim etdiyi bu imkanlardan qanuni məqsədlərlə yanaşı, qanunsuz fəaliyyət göstərən şəxslər də yararlanmağa çalışırlar. Qapalı qrupların yaradılması, saxta profillərdən istifadə, müxtəlif şəxslərlə uzaq məsafədən əlaqə saxlanılması və məlumatların sürətlə paylaşılması cinayətkarların fəaliyyətində rəqəmsal platformaların rolunu artırır.

Cinayətkarlığın forması və üsulları zaman keçdikcə dəyişir. Əvvəllər üzbəüz görüşlər, telefon danışıqları və digər ənənəvi əlaqə vasitələri ilə həyata keçirilən bəzi qanunsuz fəaliyyətlər bu gün virtual müstəviyə də keçir. Mesajlaşma tətbiqləri vasitəsilə qapalı qrupların yaradılması və müxtəlif şəxslərin vahid şəbəkədə birləşdirilməsi cinayətkarların əlaqələrini daha geniş çevrədə və qısa müddətdə qurmasına şərait yaradır. Bu imkanlardan müxtəlif qanunsuz fəaliyyətlərin təşkilində istifadə olunması artıq real əməliyyatlarla da təsdiqini tapır. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin virtual əlaqə imkanlarından yararlanması, digər hallarda isə saxta investisiya və asan qazanc vədləri ilə vətəndaşların qapalı qruplara cəlb edilərək aldadılması rəqəmsal mühitin cinayətkar məqsədlərə uyğunlaşdırılmasının nümunələrindəndir. Belə hallarda texnologiyanın yaratdığı sürət və geniş əhatə dairəsi qanunsuz fəaliyyətin daha çox şəxsi əhatə etməsinə imkan verir.

Polis əməkdaşlarının həyata keçirdikləri əməliyyat tədbirləri də bu istiqamətdə diqqətçəkən nümunələr ortaya qoyur.

Belə faktlar göstərir ki, məsələ texnologiyanın özündə deyil, onun hansı məqsədlə istifadəsindədir. Qanuni ünsiyyət və şəxsi məlumatların qorunması üçün nəzərdə tutulan imkanlar bəzi hallarda cinayətkarların fəaliyyətini əlaqələndirmə və genişləndirmə vasitəsinə çevrilir.

Virtual mühitin qapalı olması burada həyata keçirilən fəaliyyətin tamamilə izsiz qalması anlamına gəlmir. Rəqəmsal məkanda aparılan əməliyyatlar müxtəlif məlumatların və elektron izlərin yaranmasına səbəb olur. Hesablar, istifadə olunan cihazlar, elektron yazışmalar, ödənişlər və digər rəqəmsal məlumatlar cinayətlərin araşdırılması zamanı mühüm əhəmiyyət daşıya bilər. Cinayətlərin törədilmə üsulları dəyişdikcə onların aşkarlanması, alınması və açılması üçün istifadə olunan vasitələr də təkmilləşdirilir. Müasir texnologiyalardan və əməliyyat imkanlarından istifadə etməklə virtual mühitdə qanunsuz fəaliyyət göstərən şəxslərin müəyyənləşdirilməsi və məsuliyyətə cəlb olunması istiqamətində polis əməkdaşları ardıcıl tədbirlər həyata keçirməyə davam edirlər.

Rəqəmsal texnologiyaların sürətli inkişafı hüquq-mühafizə orqanlarının qarşısında yeni çağırışlar yaradır. Cinayətkarların istifadə etdiyi vasitələr və üsullar dəyişdikcə, bu əməllərin qarşısının alınması və araşdırılmasında müasir yanaşmaların tətbiqi də zərurətə çevrilir. Bu isə yalnız texniki imkanların genişləndirilməsini deyil, həm də peşəkar kadrların hazırlanmasını, yeni bilik və bacarıqların mənimsənilməsini və aidiyyəti qurumlar arasında əməkdaşlığın gücləndirilməsini tələb edir. Rəqəmsal təhlükəsizliyin təmin olunmasında vətəndaşların diqqətli davranışı da mühüm rol oynayır. Tanımadıqları şəxslərdən daxil olan şübhəli mesajlara və keçidlərə münasibətdə ehtiyatlı olmaq, asan qazanc vədlərinə inanmamaq, şəxsi və bank məlumatlarını paylaşmamaq, onlayn ödənişlər zamanı diqqətli davranmaq mümkün risklərin qarşısının alınmasına kömək edir. Xüsusilə qapalı qruplarda yayılan və həqiqiliyi təsdiqlənməmiş təkliflərə münasibətdə ayıq-sayıq olmaq vacibdir.

Texnologiyanın özü nə cinayət, nə də təhlükə mənbəyidir. Əsas məsələ ondan hansı məqsədlə istifadə olunmasıdır. Rəqəmsal imkanlardan qanunsuz məqsədlərlə yararlanmağa çalışan şəxslərə qarşı mübarizənin səmərəliliyi isə müasir texnologiyalardan düzgün istifadə edən peşəkar polis fəaliyyəti və rəqəmsal mühitdə məsuliyyətli davranan vətəndaş mövqeyi ilə daha da güclənir.

# Qanunsuz əməlinin üstü açıldı

## Polis narkotik istifadəçisini sükan arxasında saxlayıb

Xətai Rayon Polis İdarəsi Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları tərəfindən ön dövlət qeydiyyat nişanı olmadan "Chevrolet" markalı, 77-SB-704 dövlət qeydiyyat nişanlı avtomobili idarə edən sürücü, 32 yaşlı M.Vəliyev saxlanılıb. Sənədləri yoxlanılan zaman sürücünün hərəkətləri şübhə doğurduğundan onun tibbi müayinədən keçməsi təmin edilib. Müayinənin nəticəsinə əsasən, M.Vəliyevin narkotik vasitə qəbul etdiyi müəyyən olunub. Sürücü barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə inzibati protokol tərtib edilərək baxılması üçün aidiyyəti məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə M.Vəliyev inzibati qaydada həbs edilib və onun nəqliyyat vasitələrini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılıb.

# Həyətindəki gizli "əkin" ifşa olundu

## Narkotik xassəli bitkilər yetişdirən şəxs həbs edilib



Sabirabad Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə narkotik xassəli bitkilərin kultivasiyası ilə məşğul olmaqda şübhəli bilinən 47 yaşlı T.Qasımov saxlanılıb. Onun yaşadığı evin həyətindən aqrotexniki qaydada qulluq edərək yetişdirdiyi 55 ədəd narkotik xassəli kol aşkarlanıb.

Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Yuxulu sürücünün yolu qəza ilə kəsişir

## Yola nəzarət daim sürücünün diqqətində olmalıdır

***Yolda hərəkət zamanı yuxululuq sürücünün diqqətini və nəqliyyat vasitəsinə nəzarət imkanını əhəmiyyətli dərəcədə azalda bilər. Belə vəziyyətdə sükan arxasında qalmaq isə təkcə sürücünün deyil, digər hərəkət iştirakçılarının da həyatını ciddi təhlükə qarşısında qoyur.***




Yuxulu olmaq sürücünün diqqətini zəiflədir, reaksiya müddətini uzadır və yol şəraitini düzgün qiymətləndirməsini çətinləşdirir. Ən təhlükəlisi isə sürücünün bir neçə saniyəlik mürgüləməsi nəticəsində avtomobilin həmin müddətdə tamamilə nəzarətsiz qalmasıdır. Bu zaman nəqliyyat vasitəsi hərəkət zolağından çıxa, qarşıdan gələn avtomobillərin yoluna keçə, yol kənarındakı maneəyə çırpıla və ya piyadanı vura bilər. Belə hallarda bir neçə saniyəlik diqqətsizlik belə ağır yol-nəqliyyat hadisəsinə səbəb ola bilər. Uzunmüddətli səfərlər zamanı və ya kifayət qədər istirahət etmədən sükan arxasına keçərkən sürücü öz fiziki vəziyyətinə xüsusi diqqət yetirməlidir. Gözlərin ağırlaşması, tez-tez əsnəmə, diqqətin yayınması, son bir neçə kilometrin necə qət edildiyini xatırlamamaq və hərəkət zolağını saxlamaqda çətinlik çəkmək yuxululuğun əsas xəbərdarlıq əlamətlərindəndir. Bu əlamətlərdən hər hansı biri müşahidə olunarsa, hərəkəti davam etdirmək risklidir. Pəncərəni açmaq, yüksək səslə musiqi dinləmək və ya müxtəlif üsullarla yuxunu dağıtmağa çalışmaq təhlükəsizliyin etibarlı təminatı deyil. Yuxululuq hiss edən sürücü üçün ən düzgün seçim mənzil başına tez çatmağa çalışmaq deyil, təhlükəsiz yerdə dayanaraq kifayət qədər istirahət etməkdir. Çünki yorğunluğa və yuxuya qarşı mübarizə apararaq sükan arxasında qalmaq təhlükəni azaltmır, əksinə, ağır nəticəli qəzanın başvermə ehtimalını artırır.

# Məsuliyyətdən yayına bilmədilər

## Qaradağda 70 min manatlıq oğurluğun üstü açıldı



Qaradağ rayonu ərazisində fəaliyyət göstərən şirkətlərdən birinə məxsus anbardan ümumi dəyəri 70 min manata yaxın mobil telefon və aksesuarların oğurlanması barədə polisə məlumat daxil olub.

Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 33 yaşlı A.Bağırov və 35 yaşlı R.Rəsullu müəyyən olunaraq saxlanılıblar.

Araşdırma zamanı R.Rəsullunun həmin anbarda işlədiyi məlum olub.

Faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Oğurluq qızılların pulu ilə özünə avtomobil aldı

## Əməli törətməkdə şübhəli bilinən 40 yaşlı şəxs həbs edildi

Kürdəmirdə mənzildən 7 min manatlıq qızıl-zinət əşyaları oğurlayan şəxs əldə etdiyi pulla özünə avtomobil alıb. Kürdəmir rayonunda baş verən mənzil oğurluğunun maraqlı təfərrüatları üzə çıxıb. Evdən qızıl-zinət əşyalarını oğurlamaqda şübhəli bilinən şəxsin onları paytaxtda sataraq əldə etdiyi vəsaitlə özünə avtomobil aldığı müəyyən edilib.

Hadisə rayon ərazisində yerləşən mənzillərin birində qeydə alınıb. Evdən ümumi dəyəri 7 min manat olan qızıl-zinət əşyalarının oğurlanması barədə polisə məlumat daxil olduqdan sonra Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən araşdırmalara başlanılıb.

Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş 40 yaşlı N.Qasımov müəyyən edilərək saxlanılıb.

Araşdırma zamanı məlum olub ki, N.Qasımov oğurladığı qızılları paytaxta apararaq qızıl-zinət əşyalarının alqı-satqısı ilə məşğul olan məntəqələrdən birində satıb. O, əldə etdiyi pulları isə başqa məqsədlə deyil, özünə avtomobil almağa sərf edib.

Beləliklə, mənzildən oğurlanan qızıllar qısa müddətdə satılaraq avtomobilə "çevrilsə" də, şübhəli şəxs məsuliyyətdən yayına bilməyib. Polis əməkdaşlarının keçirdiyi tədbirlər nəticəsində hadisənin üstü açılıb və şübhəli şəxs saxlanılıb.

Faktla bağlı cinayət işi başlanılıb. Məhkəmənin qərarı ilə N.Qasımov barəsində həbs qətimkan tədbiri seçilib. Araşdırmalar davam etdirilir.

# Quldurun azadlığı uzun çəkmədi

## Əvvəllər məhkum olunmuş şəxs polis saxladı

Paytaxtın Nizami rayonu Q.Qarayev prospektində naməlum şəxs Bakı şəhər sakini olan bir nəfəri döyərək onun 960 manat pulunu, içərisində 250 manat dəyərində mobil telefon və 2 ədəd bank kartı olan çantasını götürüb. Nizami Rayon Polis İdarəsinin 25-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə quldurluq əməlini törətməkdə şübhəli bilinən əvvəllər müxtəlif cinayətlərə görə məhkum olunmuş 37 yaşlı E.Fərəcov müəyyən edilərək saxlanılıb.

Faktla bağlı istintaq araşdırmaları davam etdirilir.

# Videoçəkilişlər zamanı edilən təhlükəli əməllər

## İzlənilmək və diqqət çəkmək istəyi bəzən hüquqazidd əməllərə səbəb olur

**Bu gün sosial şəbəkələr, xüsusilə də TikTok insanların gündəlik həyatının bir hissəsinə çevrilib. Müxtəlif mövzularda videolar çəkərək paylaşmaq, yeni trendlərə qoşulmaq və izləyici toplamaq artıq bir çoxları üçün adi məşğuliyyətdir. Lakin bəzən daha çox baxış və bəyənmə qazanmaq istəyən şəxslər təhlükəli, məsuliyyətsiz, hətta qanunla qadağan olunan hərəkətlərə əl atırlar. Nəticədə bir neçə saniyəlik video həm həmin şəxsin, həm də ətrafındakı insanların həyatı və təhlükəsizliyi üçün ciddi risk yarada bilər.**

### *Bir neçə saniyəlik görüntünün ağır nəticəsi*

Sosial şəbəkələrdə yayılan bəzi videolarda avtomobil idarə edərkən çəkiliş aparılması, yol hərəkəti qaydalarının bilərəkdən pozulması, insanların təhlükəyə atılması, ictimai asayişin pozulması və müxtəlif riskli hərəkətlərin nümayiş etdirilməsi diqqət çəkir. Belə davranışlar yalnız "trendə qoşulmaq" və ya izləyici sayını artırmaq məqsədi daşısa da, onların real həyatda nəticələri kifayət qədər ciddi ola bilər. Xüsusilə avtomobil idarə edərkən çəkiliş aparmaq və ya telefonla məşğul olmaq sürücünün diqqətini yayındıraraq yol-nəqliyyat hadisəsi riskini artırır. Eyni zamanda ictimai yerlərdə təhlükəli hərəkətlərin nümayiş etdirilməsi digər şəxsləri də həmin davranışları təkrarlamağa sövq edə bilər. Bir videonun geniş yayılması isə təhlükəli hərəkəti adi və "əyləncəli" davranış kimi təqdim edərək onun təsir dairəsini daha da genişləndirə bilər.

### *Bəyənmə naminə məsuliyyətsiz addım*

Bəzən sosial şəbəkələrdə daha çox izlənmək üçün qəsdən qalmaqallı görüntülər hazırlanır. Şəxsi əmlaka zərər vurmaq, ictimai yerlərdə qaydalara məhəl qoymamaq, başqalarını narahat etmək, müxtəlif təhlükəli "trend"lərə qoşulmaq və bunları videoya çəkərək paylaşmaq belə hallara nümunədir. Burada əsas problem ondan ibarətdir ki, sosial şəbəkədə bir neçə saniyəlik əyləncə kimi görünən hərəkət real həyatda inzibati və ya cinayət məsuliyyətinə səbəb ola bilər. Həmçinin başqa şəxslərin görüntülərinin onların razılığı olmadan çəkilərək yayılması da ciddi narazılığa və hüquqi problemlərə səbəb ola bilər. Sosial şəbəkədə paylaşımın silinməsi həmin görüntünün artıq heç kim tərəfindən görülmədiyi anlamına gəlmir. Bir dəfə internetdə yayımlanan görüntü kopyalana, başqa səhifələrdə paylaşıla və uzun müddət dövriyyədə qala bilər.

### *Sosial şəbəkə məsuliyyətdən azad etmir*

Hüquqazidd əməlin videoformatda təqdim edilməsi və ya "dəb" adı altında paylaşılması həmin hərəkətə bəraət qazandırmır. Əksinə, sosial şəbəkələrdə yayılan görüntülər bəzi hallarda hüquqazidd əməllərin müəyyən edilməsində mühüm məlumat mənbəyinə çevrilə bilər.

Buna görə də hər bir istifadəçi paylaşdığı məzmunun mümkün nəticələri-




ni əvvəlcədən düşünməlidir. Unutmaq olmaz ki, sosial şəbəkədə əsas məqsəd izləyici toplamaq deyil, təhlükəsiz və məsuliyyətli davranmaqdır. Daha çox baxış əldə etmək üçün öz həyatını və başqalarının təhlükəsizliyini riskə atmağa dəyməz. "Trend" dəyişir, video unudulur, lakin bir neçə saniyəlik məsuliyyətsiz hərəkətin nəticələri uzun müddət davam edə bilər. Sosial şəbəkələrdən istifadə zamanı hüquq və təhlükəsizlik qaydalarına əməl etmək hər bir istifadəçinin məsuliyyətidir. Heç bir "trend" insan həyatından və təhlükəsizliyindən daha vacib deyil.

*Aytən Tahirova*

# İstintaqda psixoloji yanaşma

## İnsan davranışının düzgün təhlili obyektiv araşdırmaya xidmət edir

Cinayətin izlərinin müəyyən edilməsi, sübutların toplanması və hadisənin bütün hallarının araşdırılması istintaq prosesinin əsas istiqamətləridir. Lakin hər bir cinayət hadisəsinin mərkəzində insan amili dayanır. Şahidlərin, zərərçəkmişlərin və hadisə ilə əlaqəsi olan digər şəxslərin davranışı, emosional vəziyyəti və verdikləri məlumatlar araşdırmanın gedişinə birbaşa təsir göstərə bilər. Bu baxımdan psixoloji yanaşma istintaqın vacib istiqamətlərindən biri kimi çıxış edir. Onun məqsədi insan davranışını səthi əlamətlər əsasında qiymətləndirməyə deyil, məlumatların hansı şəraitdə formalaşdığını anlamağa və onları digər sübutlarla birlikdə obyektiv şəkildə təhlil etməkdir.

İstintaq zamanı müxtəlif xarakterli və fərqli emosional vəziyyətdə olan insanlarla ünsiyyət qurulur. Şahid, zərərçəkmiş və ya hadisə ilə əlaqəsi olan digər şəxslərin hər biri baş verənləri öz yaddaşına, diqqətinə və hadisəyə münasibətinə uyğun şəkildə qavraya bilər. Qorxu, həyəcan, stress və digər emosional hallar insanın yaddaşına və məlumatı ifadə etmə formasına təsir göstərə bilər. Buna görə də ifadənin yalnız ayrı-ayrı cümlələrinə deyil, onun ümumi məzmununa, ardıcıllığına və digər faktlarla uyğunluğuna diqqət yetirilməlidir. Bu yanaşma istintaq əməkdaşına ziddiyyətlərin səbəbini daha düzgün müəyyənləşdirməyə imkan verir. Bəzi uyğunsuzluqlar qəsdən verilmiş yanlış məlumatdan deyil, hadisənin yaratdığı psixoloji gərginlikdən və yaddaşın məhdudluğundan irəli gələ bilər.

### ►Səmərəli ünsiyyətin rolu

Psixoloji yanaşmanın əsas şərtlərindən biri düzgün ünsiyyət qurmaqdır. Qarşı tərəfi təzyiq altında saxlamaq, onu tələsdirmək və ya əvvəlcədən müəyyən edilmiş nəticəyə yönəltmək obyektiv araşdırmaya mane ola bilər. Əksinə, sakit, ölçülü və hörmətli münasibət şəxsin özünü daha rahat ifadə etməsinə şərait yaradır. Belə ünsiyyət yalnız məlumat əldə etməyə deyil, həm də həmin məlumatın daha dolğun və ardıcıl şəkildə təqdim olunmasına kömək edir. İstintaq əməkdaşının səbirli olması, qarşı tərəfi diqqətlə dinləməsi və emosional reaksiyaları düzgün qiymətləndirməsi hadisənin təfərrüatlarının aydınlaşdırılmasına mühüm töhfə verir.

### ►Düzgün sual və diqqətli müşahidə

İstintaq prosesində sualların necə verilməsi də əldə olunan məlumatın keyfiyyətinə təsir göstərir. Konkret,



aydın və ardıcıl suallar hadisənin mahiyyətini daha dəqiq müəyyənləşdirməyə imkan verir. Bununla yanaşı, cavabı əvvəlcədən müəyyən istiqamətə yönəldən və ya şəxsin fikrini formalaşdıran suallardan çəkinmək lazımdır.

Bəzən əhəmiyyətsiz görünən bir detal hadisənin bütöv mənzərəsinin formalaşmasına kömək edə bilər. Buna görə də istintaq aparan əməkdaş diqqətlə dinləməli, mühüm məqamları qeyd etməli, müxtəlif ifadələri müqayisə etməli və hər bir məlumatı digər sübutlarla birlikdə qiymətləndirməlidir. Diqqətli müşahidə də bu prosesin mühüm hissəsidir. Lakin müşahidə zamanı şəxsin davranışını avtomatik olaraq günahın göstəricisi kimi qəbul etmək düzgün deyil. Davranış yalnız araşdırmanın ümumi kontekstində və faktlarla əlaqəli şəkildə təhlil edilməlidir.

### ►Psixoloji əlamətlər və obyektivlik

Psixoloji yanaşma insanın davranışına əsaslanaraq onun günahkar olub-olmaması barədə nəticə çıxarmaq demək deyil. Şəxsin həyəcanlı olması, göz təmasından yayınması, səsinin titrəməsi və ya narahat görünməsi avtomatik olaraq onun yalan danışdığını göstərmir. Bu cür reaksiyalar qorxu, stress, utancaqlıq və ya hadisənin yaratdığı emosional gərginliklə bağlı ola bilər.

Ona görə də davranış əlamətləri yalnız əlavə müşahidə vasitəsi kimi nəzərdən keçirilməli, heç vaxt müstəqil sübut kimi qəbul edilməməlidir. Yekun nəticə yalnız faktların, ifadələrin və digər sübutların məcmusu əsasında formalaşdırılmalıdır. İstintaqda psixoloji yanaşmanın əsas məqsədi insan davranışının düzgün anlamaq, ünsiyyəti səmərəli qurmaq və araşdırmanın obyektivliyini qorumaqdır. Nəticə etibarilə, istintaq yalnız hadisənin nə vaxt və necə baş verdiyini müəyyənləşdirməkdən ibarət deyil. Bu prosesdə insanların hadisəni necə qavradığını, hansı emosional vəziyyətdə olduğunu və məlumatı hansı şəraitdə təqdim etdiyini də nəzərə almaq vacibdir. Lakin psixoloji yanaşma heç vaxt faktların yerini tutmamalıdır. Onun əsas vəzifəsi sübutları əvəz etmək deyil, onların daha düzgün anlaşılmasına və qiymətləndirilməsinə kömək etməkdir. Məhz faktlara əsaslanan, insan amilini nəzərə alan və tələsik mühakimələrdən uzaq duran istintaq obyektiv nəticəyə gətirib çıxara bilər.

Beləliklə, psixoloji yanaşma istintaqın yalnız texniki deyil, həm də insani tərəfini tamamlayır. Peşəkarlıq, səbir, diqqət və obyektivlik bir araya gəldikdə araşdırma daha dolğun aparılır, həqiqətin üzə çıxarılması və ədalətin təmin olunması üçün daha möhkəm zəmin yaranır.

*A.Tahirova*

# Sofiyada qızıl nəticə

## Təmsilçimiz beynəlxalq şahmat turnirində birinci yer tutub

Qrosmeyster, Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin baş inspektoru, polis polkovnik-leytenantı Rauf Məmmədov Bolqarıstanın paytaxtı Sofiyada keçirilən "Sofia Cup 2026" beynəlxalq şahmat turnirində uğurla çıxış edib. 30-dan çox ölkədən 200-dən artıq şahmatçının qatıldığı turnirdə güclü zəka sahibləri mübarizə aparıblar.

Rapid yarışında 9 tur ərzində mübarizə aparan R.Məmmədov 6 görüşdə qələbə qazanıb, 3 partiyanı isə heç-heçə başa vurub. Aktivinə 7,5 xal yazdıran şahmatçımız turniri birinci pillədə tamamlayaraq qızıl medalın sahibi olub. Polis polkovnik-leytenantı yarış zamanı Bolqarıstan, Macarıstan, Yunanıstan, Serbiya, Ukrayna və Polşanı təmsil edən şahmatçılar üzərində qələbə qazanıb.

Qeyd edək ki, R.Məmmədov turnirin blits yarışında da uğurlu nəticə göstərib. O, 11 mümkün xaldan 9-nu toplayaraq bürünc medala sahib çıxıb.

# Polis kapitanı qalib olub

## Əməkdaşımız beynəlxalq güc idmanı yarışında qızıl medal qazanıb

Bakıda güc idman növləri üzrə Avrasiya çempionatı keçirilib. Azərbaycan Texniki Universitetinin İdman Sarayında təşkil olunan yarışda altı ölkədən 150 idmançı iştirak edib. Azərbaycan, Türkiyə, Qazaxıstan, İran, Gürcüstan və Qırğızıstan təmsilçilərinin qatıldığı çempionatda iştirakçılar müxtəlif istiqamətlər üzrə mübarizə aparıblar.

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşı, polis kapitanı Babək Bağırlı da çempionatda uğurla çıxış edib. B.Bağırlı "turnik-brus" və "turnik" hərəkətləri üzrə birinci yeri tutaraq qızıl medala layiq görülüb.

# "Güzəştli mənzil" tələsi

## KMBİ saxta ipoteka müqavilələri hazırlayanları ifşa etdi

Daxili İşlər Nazirliyi Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi (KMBİ) tərəfindən Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) "Güzəştli mənzil" informasiya sisteminə qanunsuz müdaxilə edilməsi niyyəti və vətəndaşların aldadılması yolu ilə pul vəsaitlərinin ələ keçirilməsi faktları ilə bağlı əməliyyat-texniki tədbirlər həyata keçirilib. Nəticədə qeyd edilən qanunsuz əməlləri törətməkdə təqsirli bilinən 33 yaşlı G.Lətifova və 43 yaşlı Ş.Mirzəyeva müəyyən edilərək saxlanılıblar. Araşdırmalarla müəyyən edilib ki, həmin şəxslər müxtəlif süni intellekt proqramlarından istifadə etməklə güzəştli mənzillərin növbədənkənar əldə edilməsini təşkil edə biləcəkləri barədə vətəndaşlarda həqiqətə uyğun olmayan təsəvvür yaradaraq MİDA-nın adından saxta elektron alqı-satqı və ipoteka müqavilələri hazırlayıblar. Daha sonra həmin saxta sənədləri 1000–9000 manat arasında dəyişən məbləğlər müqabilində vətəndaşlara təqdim edərək onların pul vəsaitlərini ələ keçiriblər. Tədbirlər zamanı Ş.Mirzəyevanın yaşadığı mənzilə baxış keçirilərkən MİDA-nın adından hazırlanmış 472 ədəd saxta güzəştli mənzil alqı-satqısı və ipoteka müqaviləsi aşkarlanaraq maddi sübut kimi götürülüb.

Faktlarla bağlı Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. G.Lətifova və Ş.Mirzəyeva təqsirləndirilən şəxs qismində istintaqa cəlb ediliblər. Məhkəmənin qərarı ilə hər iki şəxs barəsində həbs qətimkan tədbiri seçilib. Hazırda saxlanılan şəxslərin qanunsuz əməllərindən zərərçəkən digər vətəndaşların müəyyən edilməsi, dəymiş maddi ziyanın ümumi məbləğinin hesablanması, həmçinin cinayət işi üzrə bütün halların araşdırılması istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Daxili İşlər Nazirliyi və Mənzil İnşaatı Dövlət Agentliyi vətəndaşlara müraciət edərək bildirir ki, güzəştli mənzillərin əldə edilməsi ilə bağlı yalnız rəsmi elektron xidmətlərdən istifadə etsinlər, növbədənkənar mənzil satışı, eləcə də prosesə kənar müdaxilə etməklə üstünlük yaradılması barədə vədlərə inanmasınlar. Vətəndaşlara bu kimi şübhəli təkliflərlə qarşılaşdıqları halda dərhal polisə məlumat vermələri tövsiyə olunur.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik